CƏMİYYƏT

# “Ərəb və körfəz ölkələrdən turist axının səngiməsi müəyyən qədər gözlənilən idi”

## RƏŞAD HƏSƏNOV: “QİYMƏTLƏRİN ARTIRILMASI NƏTİCƏSİNDƏ ÖLKƏNİN TURİZM SEKTORUNUN QİYMƏT RƏQABƏTLİLİYİ ZƏİFLƏMƏYƏ BAŞLADI”

## RƏHMAN QULİYEV: “TURİZM SEKTORUNDA ƏRƏBLƏRİN SAYININ AZALMASI ÖLKƏMİZDƏ HAVA ŞƏRAİTİNİN MÜLAYİM KEÇMƏSİ İLƏ ƏLAQƏDARDIR”

**2015-ci ildən etibarən turizm sektoruna dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Bunun da nəticəsində turizm sektoru inkişaf edir. İstər Bakıda, istərsə də Azərbaycanın digər regionlarında həm bayram ərəfəsində, həm də adi günlərdə müxtəlif ölkələrdən gələn turistlərə rast gəlinir. Belə ki, hər il Yeni il və Nomruz bayramları ərəfəsində ölkəyə gələn turistlərin sayında artım müşahidə olunur. Lakin bu dəfə, yəni 2018-ci ildə, ötən illərdən fərqli olaraq Yeni il ərəfəsində turistlərin sayında azlma müşahidə olundu. Bəs görəsən, bu azalmaya əsas səbəb nələrdir? Bunun turizmə nə kimi təsirləri ola bilər?**





Mövzu ilə bağlı “Üç nöqtə”yə açıqlama verən iqtisadçı Rəşad Həsənov deyir ki, bu bir neçə faktorla əlaqəlidir. Bunlardan ən başlıcası, İranda 2018-ci ildə vəziyyətin əhəmiyyətli dərəcədə pisləşməsidir. Bu da İran əhalisinin turizm xidmətlərindən istifadə imkanlarını məhdudlaşdırıb: “ İrandan Azərbaycana turist axınında 38 faiz azalma olub. Bu da Azərbaycan üçün 100 mindən artıq turist deməkdir. Çünki Azərbaycana gələn turistlərin tərkibində İrandan gələnlərin sayı təxminən 15-16 faizdir. Rusiya və Türkiyə kimi ölkələrdən sonra İran üçüncü, dördüncü yerdə qərarlaşır. Bu ölkədən Azərbaycana həm bayramlar ərəfəsində, həm də digər dövrlərdə əhəmiyyətli sayda turist axını müşahidə olunur. 2017-ci ildə bu göstərici təxminən 216 mindən yüksək olmuşdu. İranda valyutanın məzənnəsinin kəskin şəkildə ucuzlaşması və Azərbaycanda manatın məzənnəsinin ABŞ dollarına nisbətən il ərzində sabit qalması, Azərbaycanda turizm xidmətlərinin İranlı turistlər üçün əlçatanlığı təsirsiz ötüşmədi. Həm onların alıcılıq, istehlak gücünün zəifləməsi turizm xidmətlərinə çıxış imkanlarını məhdudlaşdırırdı, digər tərəfdən də Azərbaycanda qiymətlər iranlı turistlərin gəlirləri fonunda yüksəlməsi ölkəmizə gələn turistlərin sayına təsir etdi. Bundan əlavə Türkiyə və Gürcüstanda valyutaların müəyyən qədər ucuzlaşması fonunda bu ölkələrin turizm sektorlarının cəlbediciliyi turistlərin həmin ölkələrə üz tutması ilə nəticələndi. Bu, mühüm səbəbdir ki, turistlər ona önəm verir. Bu səbəbdən də Azərbaycana yönələn turist axını 2018-ci ildə daha çox Türkiyə və Gürcüstana istiqamətləndi”.

İqtisadçının sözlərinə görə, Azərbaycanda bu sektorda təkliflə tələb arasında ciddi disbalans formalaşıb: “Çünki Azərbaycanın turizm sektoru buna hazır deyildi. Və bu fonda qiymətlər əhəmiyyətli səviyyədə yüksəldi. 2015-ci ildən başlayaraq ilk illərdə bir tərəfdən manatın dəyərsizləşməsi turizm sektorunun cəlbediciliyini artırmışdısa, digər tərəfdən sonradan qiymətlərə edilən korreksiyalar, qiymətlərin artırılması nəticəsində artıq ölkənin turizm sektorunun qiymət rəqabətliliyi zəifləməyə başladı”.

R.Həsənov deyir ki, bu dövr ərzində Azərbaycana turist axınlarının artımı əsasən Ərəb və körfəz ölkələri üzrə müşahidə olunurdu: “Hazırda bu ölkələrdən turist axının səngiməsi müəyyən qədər gözlənilən idi. Çünki hər bir ölkədə müəyyən sosial qruplar var ki, orta və yüksək gəlirli əhalini təşkil edirlər. Və onlar turizmə meylli hesab olunurlar və xarici turizm xidmətlərindən daha çox istifadə edirlər. Amma onlar da bir ölkənin turizm xidmətlərindən istifadə etdikdən sonra digər alternativlər üzərində düşünməyə başlayırlar. Bu isə onların turist səfərlərinin dövriliyinin zəifləməsinə səbəb olur. Artıq ərəblərin Azərbaycanın turizm sektoruna meylliliyi zəifləməyə başlayıbdır. Nəticədə 2016-2017-ci illərdə ölkəyə gələn turistlərin sayında ikirəqəmli artımlar müşahidə olunurdusa, 2018-ci ildə 11 ayın nəticələrinə görə bu göstərici 6 faiz aşağı düşübdür. İllik nəticələr böyük ehtimalla yaxın günlərdə açıqlanacaqdır və bu nəticələrdə ciddi fərqlər yaranacaqdır. Hətta göstərici üç faizə qədər azala bilər. Çünki yeni il ərəfəsində ölkəyə gələn turistlərin sayı xüsusilə daha çox olur. Lakin 2018-ci ilin sonunda bu baş vermədi. Son nəticədə 2018-ci il ölkəyə axan turistlərin sayının, hətta ötən illə müqayisədə cəmi 3 faizi artımı müşahidə oluna bilər. 11 ayın nəticələrinin 6 faiz olmasına baxmayaraq, bu göstərici illik fonda ciddi şəkildə azalacaqdır”.

İqtisadçı bildirir ki, burda müəyyən faktorlar təsir göstərir və bu faktorların hər biri üzrə ayrı-ayrılıqda hər hansı bir dövlət proqramlarının həyata keçirilməsinə ehtiyac var: “İlk növbədə Azərbaycanda turizm sektoruna ciddi şəkildə investisiya axını təmin olunmalıdır. Əks halda mövcud turist axını fonunda qiymətlər növbəti dövrlərdə də artmağa başlayacaqdır. Bu isə Azərbaycanın turizm sektorunun digər qonşu ölkələrlə müqayisədə rəqabətliliyini əhəmiyyətli səviyyədə növbəti dövrlərdə azaldacaqdır. Çünki təklifin həcminin az olması hazırda qiyməti artıran əsas səbəblərdən biridir”.

R.Həsənov eyni zamanda turizm coğrafiyasının genişləndirilməsinə ehtiyac olduğunu vurğuladı. Qeyd etdi ki, Azərbaycanın şimal regionları bu istiqamət üzrə ixtisaslaşıbdır: “Cənub regionları üzrə infrastrukturun zəif olması fonunda müəyyən qədər bu xidmətlərdən istifadə imkanları məhdud idi. Hazırda yolun istifadəyə verilməsi növbəti dövrlərdə böyük ehtimalla cənub regionuna da turist axınını şərtləndirəcəkdir. Eyni zamanda burada digər xidmət infrastrukturunun da genişləndirilməsinə və bu istiqamətə investisiya axınlarının təmin olunmasına ehtiyac var. Bundan başqa cənub-qərb, cənub-şərq istiqamətlərində turizm sektorlarının inkişaf etməsi ilə bağlı kompleks tədbirlər planının hazırlanmasına ehtiyac var”.

Turizm eksperti Rəhman Quliyev isə deyir ki, ümumiyyətlə bütün turistlərə və səyahət sevənlərə xas bir əlamət var. Belə ki, onlar gedəcəyi ölkələrdə, məkanlarda öncədən hava durumunu izləyirlər: “Hava durumunu öyrəndikdən sonra əgər onlara münasibdirsə, həmin ölkəyə bilet alıb gedirlər. Bildiyimiz kimi, bu yeni ildə Azərbaycanda hava şəraiti, iqlim göstəriciləri, havanın temperaturu müsbət olduğu üçün Bakıda və ətraf rayonlarda qar olmadığına görə, dağlıq ərazilərdə isə nəzərəçarpacaq dərəcədə olmaması da öz təsirini göstərdi. Bu da onunla bağlıdır ki, ərəb ölkələrində havalar isti olur və onlar qışı soyuq yerdə keçirmək istəyirlər. İldə bir dəfə işdən vaxt edib qış fəslində Azərbaycana gəlmək istəyirlər, çünki Azərbaycan həm müsəlman ölkəsidir, həm də Avropaya inteqrasiya edən ölkələrdən biridir. Buna görə də onlar Azərbaycanı səyahət üçün ən əlverişli ölkə hesab edirlər. Lakin hava şəraitinin mülayim keçməsi buna şərait yaratmadı”.

R.Quliyev deyir ki, bu azalmada nə turizm təşkilatlarının, nə turizm şirkətlərinin, nə də xidmətin heç bir rolu yoxdur: “Hər kəs öz işinin başındadır və layiqincə işini yerinə yetirir. İlbəil yaranan tələbata görə işimizi daha da təkmilləşdirib ən yüksək səviyyədə həyata keçirəcəyik”.

Turizm eksperti Firdovsi Xəlilov isə bildirir ki, bir neçə il əvvəl – 2015-2016-cı illərlə müqayisədə ölkəmizə xüsusilə İran və İraqdan gələn turistlərin sayında ciddi azalma var: “2015-16-cı ilin yanvarında artıq otellərimiz mart ayına, Norvuz Bayramı üçün dolu olurdu, boş yer tapmaq mümkün deyildi. Bu tendensiya özünü müəyyən qədər 2017-ci ildə də göstərdi. Amma indi vəziyyət dəyişib”. Ekspertin sözlərinə görə, turizm axınının böyük hisəsini iranlı turistlər təşkil edirdi, onların həm sayı çox idi, həm də həm yüksək, həm də orta qiymətli otellərdə yaşayırdılar: “İranlılar 4-5 ulduzlu, 150-160 dollarlıq otellərə üz tuturdular, bir hissə isə daha aşağı seqment sayılan 40-50 dollarlıq otellərdə qalırdılar”. İndi isə vəziyyət dəyişib. Yanvar ayı olmasına baxmayaraq Novruz bayramı üçün otellərin heç də hamısı tutulmayıb: “Turistlərin sayı 70-80% daha azdır. Hətta 40-50 dollarlıq otellər də boşdur”.

F.Xəlilov bildirib ki, İran turistlərinin azalmasının səbəbi son bir ildə İranda baş verən kasıblaşma olub: “Son il ərzində İran valyutası 4 dəfə dəyər itirib. İranda 100 dollar 27 min tüməndən 110 min tümənə yüksəlib. Nəticədə İranlı ailələrin imkanları məhdudlaşıb, yəni turizmə xərclədiyi pullar da azalıb”.

F.Xəlilovun sözlərinə görə, İranla bağlı əsas probelemlərdən biri odur ki, Azərbaycan şirkətləri indiyədək İranın ən böyük bazarı olan Tehrana çıxa bilməyib, buradakı turizm sektoru ilə davamlı əlaqə yaratmayıb: “Tehran 15 milyon əhalisi olan şəhərdir, ən əsası burada İranın ən varlı şəhəridir, bütün pular da buradadır. Amma bizim şirkətlər Tehran bazarı ilə demək olar işləmirlər. Buradan gələn turistlər də öz istəkləri ilə gələnlərdir”.

Ekspert deyir ki, Azərbaycana gələn turistlərin əksəriyyəti İranın Azərbaycanla sərhəd bölgəsində yaşayanlardır: “Onlar isə nisbətən kasıbdır, əsasən avtobuslarla səyahət edənlərdir və iqtisadi problemlər dərhal onlara təsirini göstərir”.

Azərbaycana ərəb turistlərinin azalmasının əsas səbəbi isə İraq turistləri üçün sadələşdirilşmiş viza rejiminin ləğv edilməsidir. Qeyd edək ki, son bir ilədək Azərbaycana gələn iraqlı turistlər vizanı sadələşdirilmiş şəkildə sərhəddə ala bilirdilər. Bu da həmin ölkədən turist axınını sürətləndirirdi: “Viza sərhəddə veriləndə İraqdan Azərbaycana böyük axın oldu. İraq vətəndaşları nisbətən aşağı seqmentli otellərdə qalsalar da, dollar xərcləyirdilər, AVM-lərdə alış-veriş edirdilər və fayda gətirirdilər. Adamlar nəğd pul xərcləyirdilər, bu əladır və bütün sektorun sevdiyi müşərilər idi”. Viza ilə bağlı dəyişikliklərdən sonra iraqlu turistlərin sayında ciddi azalma var: “İraqlı turistlərə aeraporta verilən viza dayandırılıb, artıq iraqlılara Azərbaycan visası almaq Gürcüstana hər şey daxil tur almaqdan çətin olub”. Yeri gəlmişkən, ekspertin sözlərinə görə, bir sıra səbəblər üzündən İraq turistlərinin Azərbayan iqtisadiyyatı üçün faydası digər turistlərdən daha artıq idi: “Onların bir hissəsi Azərbaycana təkcə səyahət məqsədilə deyil, hətta ailələrinin təhlükəsizliyini təmin etmək üçün gəlirdilər. Çox sayda iraqlılar ailələrini gətirib Bakı, İsmayıllı, Qəbələ və Qubada evlər kirayələyib yaşayırdılar”. Bəzi İraq vətəndaşları Azərbaycanda uzun müddət qalırdılar: “İmkanı olanlar ailələrini düşünürdülər. Bir çox hşəhərlərdə 6 ay yüksək temperatoru olurdu, yaşamaq və işləmək olmurdu, ona görə də kişişlər işləyir ailəsi burda qalırdı. Ayda 1500-2500 dollar pul xərcləyən adamlar idi». Amma vizaların çətinləşməsi bu sahəyə də təsirini göstərib. Yeri gəlmişkən, İraq vətəndaşları üçün sərhəddə viza verilməsinin dayandırıldığını bu ölkənin Azərbaycandakı səfirliyində də təsdiqləyiblər. Səfirlikdən bildirilib ki, bu dəyişiklik Azərbaycan tərəfinin təşəbbüsü ilə olub.

***Könül Oruc***